Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies,
Cilt: VIII, Sayı 1, Sayfa: 107-117, İZMİR 2008.

# GÜNEY AZERBAYCAN'DA, KAFKASYA İSLAM ORDUSUNDA VE AZERBAYCAN HALK CUMHURİYETİNDEKİ MİLLİ MÜCADELELERDE Y. Z. TALİBZADE'NİN ROLÜ (1917-1918)

## Activity of Y. Z. Talibzade in South Azerbaijan in the Ranks of the Caucasus Islamic Army in the Goverment of Azerbaijan National Republic

***Minahanım ESEDLİ*** [*]

**Özet**

Mekalede Y.Z.Talıbzadenin Azerbaycan Halk Cumhuriyyeti dönemindeki fealiyeti araştırılır, habele Güney Azerbaycandakı ve Kafkasya İslam Ordusu sıralarındakı hizmetlerine tokunulur. Onun istimai-siyasi ve esgeri faliyeti ile yanaşı elmi-publisistik yaradıcılığının bezi mekamları dövri matbuat ve arhiv senedleri esasında işıklandırılır.

***Anahtar Kelimeler*:** Y. Z. Talibzade, Güney Azerbaycan, Kafkasya İslam Ordusu, Azerbaycan Halk Cumhuriyeti.

**Abstract**

An article analyses Y.Z.Talibzade's activity in the government of Azerbaijan National Republic and also is mentioned some moments of his activity in South Azerbaijan and service in the ranks of the Caucasus Islamic Army. On the base of archive materials an article brighten his social and political activity and theoretical and political creative work.

***Key Words:*** Y. Z. Talibzade, South Azerbaijan, Caucasus Islamic Army, Azerbaijan National Republic.

Yusif Ziya Talıbzadenin çökyönlü faliyetinin araşdırılması bele bir tarihi gerçekliyi bir daha tesdikleyir ki, XX yüzilin ilk onillikleri Azerbaycan türklerinin tarihinde milli intibah dövrüdür. Müterekki dünyagörüşlü, intibah ruhlu bu universal şahsiyetler gergin ve böhranlı anlarda bele ruhdan düşmemiş, ekideleri yolunda çarpışmış, ictimai fikrin formalaşdırılması üçün bütün mövcud tebliğat vasitelerinden istifade etmişler. Dövri matbuatda müntezem çıkışları ile yanaşı, Y.Z.Talıbzade hem de Bakıda teşekkül tapıb fealiyet gösteren bir çok medeni-maarif cemiyetlerinin rehberliyinde temsil olunmuşdur. Maarifçilik seyleri daha kabarık nezere çarpan hemin cemiyetlerin faliyetine o da öz töhfelerini vermişdir. Yusif Ziya, İlk tamaşası 1910-cu il noyabrın 19-da Bakı şeher teatrında 'Nicat' cemiyeti dram heyeti terefinden oynanılmış 'Ermenüse' (Ömer ibn As) faciesinin müellifidir. O, hemçinin de ilk tamaşası 1912-ci il sentyabrın 28-de 'Nicat' cemiyeti dram heyeti terefinden oynanılmış 'Halid idn Velid' – Şamın fethi ve ereblerin Roma ile müharibesi' adlı dram eserinin müellifidir[1].

Y. Z. Talibzade'nin milli ekidesinin, siyasi mensubiyetinin göstericilerinden biri de onun adının 'Müsavat' partiyasının ilk yaradıcıları arasında yer tutmasıdır. M.E.Resulzadenin emisi oğlu Memmedeli Resulzade (Resuloğlu) 'Müsavat Partiyasının kuruluşu' adlı hatire yazısında bu hakda melumat vererek bildirir ki, 'Partiye ilk aldığımız arkadaşlar şunlardır: Veli Mikailoğlu (ikinci dünya savaşında İrana girmiş bolşevikler tarafından Zencan şehri civarında çalınarak yok edildi), Seyyit Hüseyn Sadik (Sibiryaya sürüldü), Abdürrahim (eceliyle vefat etti), Yusif Ziya, 'Ahunt Yusuf' (Türküstanda

[*] *Doç. Dr., Azerbaycan Devlet Medeniyet ve İncesenet Üniversitesi – Bakü.*

[1] Mövsüm Eliyev, "Yusif Ziya bey Talıbzade", **Ulduz**, 1989, № 2 (262), s.94.

bolşeviklere karşı Basmaçılarla beraber savaşırken şehit düştü). Seyyid Musevi (Çar ajanlarının tahrikiyle öldürüldü)'[2].

Bakü hayriye cemiyetlerinin ve 'Müsavat' Partiyasının Türkiye ile elakelerini sahlayan en feal şahsiyetlerden biri mehz Y.Z.Talıbzade olmuşdur. Onun Azerbaycan-Türkiye elakelerinin yaradılması sahesinde gördüyü işler menbelerde, o cümleden aile üzvlerinin hatirelerinde tesdiklenmekdedir. K.Talıbzadenin elyazması halında olan[3] hatire yazılarından birinde ohuyuruk: 'Men hele lap kiçik yaşlarında olanda emim Yusif Ziya mövzusu ailemizin esas söhbet mövzularından idi. Ancak görürdüm ki, böyükler bu barede ancak teklikde olanda, bir az da ehtiyatla danışırlar. Aile üzvleri ve kohumlarımız kimi men de ona sadece olarak Yusif emi deyerdim. Onu da deyim ki, ondan en çok nenem Mehri hanım, anam Şahzade hanım, bibim oğlu Husneddin (Sonralar Bakü Dövlet Universitetinin dosenti olmuş Husneddin Rzayev – M.E.) ve bibim kızı Kövkeb danışar, kırık-sökük hatireler söyleyer, men de marakla dinlerdim. Ancak atam heç vaht kardaşından söhbet acmaz, çalışardı ki, bu baredeki danışıklarda iştirak etmesin. Çok zaman bizimle yaşayan yegane oğlu Telet de atası baresinde danışmağı sevmezdi. Sonralar men, bütün bu Yusif Ziyaya mühtelif münasibetlerin yaranmasının sebebini öyrendim. Yusif Ziya Talıbzadenin adı, artık 1923-cü ilde Bakûdan köçüb Türksütana gedenden sonra Azerbaycandakı sovetperestlerin, rus çekasının kara siyahısına düşmüşdü, buna göre atamın da, emim oğlu Teletin de gözü kölgeli idi. O yadımdadır ki, nenem böyük oğlunun tez-tez harice, hüsusen Türkiyeye getmesinden, aile kayğıları ile o keder maraklanmadığından şikayetlenirdi'.

Türkiyede esgeri tehsili, Balkan herbinde könüllü iştirakı, Birinci Cahan savaşında Osmanlı ordusu terkibinde Kafkasya cebhesindeki fedakarlıkları ile beraber o özünü Azerbaycanın ictimai-siyasi heyatından da tecrid etmir, dövrü matbuat sehifelerinde mühtelif mövzulu mekalelerle çıkış edir.

Y. Z. Talibzade'nin bu yıllarda Güney Azerbaycan'daki faliyeti de, demek olar ki, tamamile tedkikatdan kenarda kalmışdır. Bu hakda bezi menbelerde yalnız natamam melumatlar verilir. Tebii ki, onun bu fealiyetleri Osmanlı ordusu ve islam ittihadçılarının planları çerçivesinde heyata keçirilmişdir. Bele ki, Birinci Dünya müharibesinde Güney Azerbaycanı işğal etmiş çar ordusunun, 1917-ci il oktyabr inkilabı ile elakedar zebt olunmuş erazileri terk etmesi Osmanlı ordusu üçün elverişli imkan yaratdı. Bu yolla Güney Azerbaycan Osmanlı ordusu terefinden ele keçirildi. Bu tarihi hadisenin mahiyyetine ve burada Y.Z.Talıbzadenin iştirakına aydınlık getiren Doktor Cavad Heyet bildirir ki, bu hadise erefesinde Urmiya; Hoy ve çevrelerindeki hristian-müselman tokkuşmasında bütün bölgede tekriben 130 min nefer insan öldürülür. O, Ehmed Kaviyanpura istinaden yazır: 'Bu zaman Rus silahlı gücleri müselmanları terki silah etmek üçün emr çıharır, ferman verir.

Bu elanda yazılmışdı: Azerbaycanda İran dövleti terefsizliyini sahlaya bilmediyi üçün müttefiklerin kerarı ile harici Osmanlı ordusunun Azerbaycana girişinin karşısını almak meksedile milli Hristian ordusu teşkil edilir. Müselmanlar aşağıdakı şertlere riayet etmelidirler:

1. İstipanyans başkanlık ve liderliyinde 16 neferlik bir meclis teşkil edilir.

2. Şeherde fövkelade veziyyet elan olunduğundan, polis idaresinin reisi bu meclis terefinden teyin edilmelidir.

3. Müselmanlar 48 saat içerisinde silahsızlanmalı ve silahlarını tehvil vermelidirler.

4. İran kazak birimleri Rus zabitlerine tabe olunmalıdırlar'[4].

Araşdırmalar gösterir ki, Osmanlı ordusunun Güney Azerbaycana girmesinin kökünde heç de yalnız işğalçılık niyyeti deyil, hem de soydaş ve dindaşlarını soykırımdan kurtarmak meksedi dururdu. Çünki artık bu zaman ermeni generalı Andranik 3 minlik öz silahlı ordusu ile Araz çayından keçib Hoy şeherini mühasire edir ve hoyluları kırdıkdan sonra, Urmiyaya teref getmek, hristian küvvelerle birleşerek, Hristian dövletinin teşkil olunacağı yerde, her ehtimala göre, Osmanlı ordusu hücumunun

---

[2] Mehmetali Resulzade, **'**Müsavat' Partisinin Kuruluşu, 'Azerbaycan' (Ankara), **Azerbaycan Kültür Dernegi Aylık Yayın Organı,** sayı:167 (2), Şubat 1966, s.13.

[3] Kamal Talıbzade, **Yusif Ziya Talıbzade,** A.Şaikin Menzil Muzeyinde sahlanılan elyazması, kovluk 4.

[4] Cavad Heyet, **Dr. Turec Etabekinin 'Azerbaycan' kitabı üzerine bir deyerlendirme ve tekmilleşdirme.** Medeniyet dünyası, VI burahılış, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universiteti, 2003, s.79.

karşısını almak isteyir. Andranik öz planlarını realize etme ve böyük Ermenistan yaratma yönünde Rus ve ingilis komandanlarının razılığını almışdı. Osmanlı Türk ordusu yalnız bele bir şeraitde Azerbaycana gelir, Hoy ve Salmasda Andraniki ve diger Hristian küvveleri meğlub edir. Andranik öz ordusu ile ferar etmek mecburiyyetinde kalır. Bununla bele milli düşmenlerimizin Güney Azerbaycanda müstekil Hristian dövleti yaratmak planı 130 min nefer insan öldürülmesi ile neticelenir.

Teessüfler olsun ki, Osmanlı imperatorluğunun müvekketi barışma imzalaması neticesinde Osmanlı ordusu tezlikle Güney Azerbaycandan çekilir. Türk ordusunun Güney Azerbaycanda olduğu vaht halkımızın milli dövletçiliyi bahımından yaranmış tarihi şeraitin elden verilmesine teessüflenen Ehmed Karaca 'Azerbaycanın yakın tarihine kısa bir bahış' adlı eserinde yazır: 'Burada Osmanlı imperatorluğu böyük bir sehv eledi. Güney Azerbaycanda fealiyet gösteren Şeyh Mehemmed Hiyabaninin dövlet kurmasına yol vermediler ve onu Karsa sürgün etdiler. Halbuki, Şeyh Hiyabani Güney Azerbaycanda türk dövletini kurmuş olsaydı, eyni vahtda Şimali Azerbaycanda kurulan Azerbaycan Demokratik Respublikası ile birleşerek, vahid 'Azerbaycan dövleti' yaranacakdı'[5]. Eslinde bu fikirde tarihi hekikete birterefli münasibet özünü gösterir. Çünki regiondakı karışık ve dolaşık münasibetlerde Hiyabani terefdarları Müsavatçılardan çok bolşeviklere ümid besleyirdiler.

Doğrudur, Osmanlı ordusu geri çekilenden sonra Şeyh Mehemmed Hiyabani Karsdan Tebrize kayıdır ve 1920-ci ilde Azadstan Respublikasını kurur. Suretli islahat işlerine başlanılır. Azerbaycan türkcesi resmi dövlet dili olur. Lakin inglislerle bolşeviklerin şiddetli mühalifeti, pozucu ve kızışdırıcı fealiyetleri ile karşı-karşıya gelen Azadstan Respublikası rus, inglis ve İran orduları terefinden yıhılır. Şeyh Mehemmed Hiyabani Tebrizde son küvvesine keder vuruşur ve şehid olur.

Osmanlı ordusunda 'İttihadi-islam' cemiyetinin nüfuzu ve tutduğu mövkeyi şerh eden Doktor Cavad Heyet Y.Z.Talıbzadeni Osmanlı islam ittihadının başkanı kimi dekdim edir. O, 'Dr.Turec Etabekinin 'Azerbaycan' kitabı üzerine bir deyerlerdirme ve tekmilleşdirme' adlı eserinde yazır: 'Menim atam merhum müctehid Mirze Eli Heyet ki, halk terefinden saykı ile karşılanar ve Azerbaycanda hökumetin teimsilçisi olan Kacar veliehdi Mehemmed Hesen Mirze ile de çok yahşı münasibetleri var imiş. Osmanlılarla da yahşıca ilişkileri olmuş ve onlarla birlikde 'İttihadı İslam' cemiyetini teşkil etmiş ve özü de İran üzre bu cemiyetin başkanlığını (Osmanlı İslam ittihadının başkanı merhum Yusif Ziya bey idi) yapmışdır. Osmanlıların sonrakı davranış ve terkileri barede bele revayet ederdi: Rus, ingilis ordusunun, Fransız ve Amerika missionerlerinin himayesini arhasına alan Asuriler, Ermeni daşnakları ve Andranik ordusu Urmiyede, Salmasda, Hoyda ve etraf kendlerinde müselmanalrı ümumi ketle uğratdıkdan sonra, Osmanlı ordusu yetişdi ve onların hücumu neticesinde, hristian gücleri meğlub olub, ekseriyyeti ferar etdiler…'[6]. Müellif, Yusif Ziya beyle bağlı keydinde bele bir açıklama da verir ki, Osmanlı ordusunun albayı Yusif Ziya paşa Kuzey Azerbaycanlı ve Bakü Universitesinin müellimi Abbdulla Şaikin kardaşı olmuşdur. Sovyetler Birliyi kuruldukdan sonra, Yusif Ziya Nerimanov terefinden devet edildi ve bir neçe ay Nahçıvanda Azerbaycana hidmet etdi[7].

Y.Z.Talıbzadenin Güney Azerbaycandakı faliyetini tesdikleyen möteber menbelerden biri de 'Abdulla Şaikin Menzil Muzeyi'nde mühafize olunan fotoşekildir. Kiymetli bir sened kimi, muzey fondunda sahlanılan bu fotoşekil Yusif Ziyanın Güney Azerbaycanla bağlantısına tutarlı delil olmakla yanaşı, onun hem de 'İttihadi İslam' cemiyetinin rehber simalarından biri olduğunu tesdikleyen eyani sübutdur. Burada dövrün dini, esgeri ve siyasi hadimlerinin ehatesinde (merkezde) esgeri geyimli Y.Z.Talıbzadenin ve Doktor Cavad Heyetin atası – müctehid Mirze Eli Heyetin yanaşı tesvirleri ön plandadır.

Sonralar – Azerbaycan Halk Cumhuriyetinin ilk vahtlarında ittihadçılar, bele demek mümkünse, hem de ilhakçılarla eyni cebhede olan Yusif Ziyanın AHC rehberleri ile bezi anlaşılmazlıklara sebeb olan mövke ferkliliklerinin mahiyyetine aydınlık getirmek üçün 1915-ci il Güney Azerbaycan hadiseleri de marak doğurur. T.Svietoshovski 'Rus Azerbaycanı 1905 – 1920' eserinde melumat verir ki, Helil Paşa, komandanlığındakı güclendirilmiş küvvetlerle 1915-ci ilin yanvarında Tebrizi zebt ederek, Rus

---

[5] Ahmet Karaca, "Azerbaycanın Yakın Tarihine Kısa Bir Bakış", Ankara, Azerbaycan Kültür Dernegi Yayınları, 1982, s. 16.
[6] Cavad Heyet, **Dr. Turec Etabekinin 'Azerbaycan' kitabı üzerine bir deyerlendirme ve tekmilleşdirme,** Medeniyet dünyası, VI burahılış, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universiteti, 2003, s. 79-80.
[7] **Age**, s. 80.

Azerbaycanının kapısına dayanmışdı. Bu zaman Osmanlı Dövletinin Kafkasya siyasetinin rehberi Ömer Naci idi ve o, Şerki Kafkasya İttihad ve Terekki Komitesi Müfettişi teyin edilmişdi. T.Svietoshovskiye göre vezife osmanlıların iki Azerbaycanı birleşdirme isteklerine ve bunun Osmanlı Dövletinin himayesinde gerçekleşeceyine işare idi[8]. Lakin Osmanlı Ordusu Tebrizde çok davam getire bilmeyir. Sarıkamış meğlubiyyetinden sonra Tebriz derhal rusların eline keçir. Sonrakı cehdler, Enver Paşanın gözlediyi ve umduğu 'Türkçülük' semereleri de netice vermedi. Tedikatçılardan Fevzi Çakmak, Kurat, Sünbül, B.Aslan, Svietochovski ve digerleri tesdikleyir ki, hüsusile Ömer Nacinin Tebrizde olduğu esnada, ister İran Azerbaycanında ve isterse de Şerki Kafkasyada ruslara karşı üsyanlar başladı. Bu herekatların merkezi 'Difai' teşkilatının güclü olduğu Gence idi. Bu arada Azerbaycan türklerinin bu teşkilat vasitesile Osmanlı Dövleti ile münasibetler yaratdığı anlaşılır. Hemçinin 1915-ci ilin fevralında Feteli han Hoyskinin kardaşı oğlu Emiraslan han gizlice serhedi keçerek Erzuruma gelmiş ve Türkiye selahiyyetlileri ile elake kurmuşdur. O, 'Difai' teşkilatının nümayendesi kimi Transkafkasya müselmanlarının müstekil bir dövlet kurmak arzularını açıklamışdır. Onun teklifine göre Bakü, Gence, İrevan kuberniyalarıyla Terek ve Dağıstanı dahil ederek İsveçre tipli müstekil bir dövlet kurulması mümkündü. Kafkasyada Türkiye ile Rusiya arasında bele böyük bir tampon dövlet kurulması fikri Enver Paşa terefinden de müvafik sayılmasına bahmayarak Ruslar karşısındakı meğlubiyyet bele bir planın gerçekleşmesine mane olmuşdu[9].

Y.Z.Talıbzadenin sonrakı herbi-siyasi faliyeti Osmanlı ordusu ve Azerbaycan könüllülerinden ibaret 'İslam ordusu'nda davam edir. 1918-ci yıl iyun ayının 4-de 'Osmanlı imperatorluğu hökumeti ile Azerbaycan Respublikası arasında dostluk mükavilesi' imzalanır. Hemin mükavileni Türkiye terefinden edliyye naziri Helil Menteşe, Kafkasya cebhesinin Baş komandanı Vehib Paşa, Azerbaycan terefinden harici işler naziri M. H. Hacınski ve Milli Şuranın sedri M.E.Resulzade imzalayırlar. Azerbaycan Respublikasının harici dövletlere imzaladığı ilk mükavile 11 maddeden ibaret idi. Mükavilenin Azerbaycan üçün çok mühüm olan dördüncü maddesinde gösterilirdi ki, 'Dinclik ve asayişi möhkemlendirmek, ölkenin tehlükesizliyini temin etmek üçün eger ehtiyac olarsa, Osmanlı hökumeti Azerbaycan Respublikasına esgeri yardım göstermeyi öz üzerine götürür'[10].

Tebii ki, I Cahan herbinin sonlarına doğru herbi-siyasi veziyyeti son derece gergin durumda olan Osmanlı dövletinin Azerbaycana ordu göndermesinin bir sıra müşkülatları vardı. Bu addım neinki karşı cebhe dövletlerinin, habele müttefik Almaniyanın da mükavimeti ile karşılandı. Bunun üçün de Türkiye hökumeti Osmanlı ordusu ile Azerbaycan könüllülerinden ibaret Kafkasya İslam Ordusu yaradılması kerarını verir. Ve bu işin, Azerbaycanı her yönden yahşı tanıyan herbçi ve siyasetçiler olmadan başarlı olacağını mümkünsüz hesab eden ordu rehberliyi, her iki ölkenin ictimai-siyasi heyatında kifayet keder nüfuzları olan ve hemin dövrde Türkiyede çalışan Ehmed bey Ağaoğlu, Eli bey Hüseynzade, Ahund Yusif Talıbzade kimi şahsiyetlerin orduda temsil olunmalarını zeruri ve çok faydalı bilmişdi. Ehmed bey Ağaoğlunun herbi müşavir olduğu bu ordunun könüllülerden ibaret Yardım alayının başında Yusif Ziya dururdu. Mühacir Azerbaycan ziyalılarından Ebdülvahab Yurdsever bu hakda yazır: 'Ahund Yusifin türkçülüyünde ve turançılığında kimsenin şübhesi olmasa gerekdir. Harakter etibarı ile Şaikin tamamen hilafına olarak feal bir siyaset adamı ve usanmaz bir mücadileçi bulunan Ahund Yusif çarlık dönemınde bir müddet Bakü real lisesinde türkce ve şeriet öyretmenliyini yapdıkdan sonra, Balkan herblerinde Türkiyeye gederek, orduya könüllü keyd olmuş ve reşadeti sayesinde çabuk irelileyerek kendi iradesine göre minbaşı rütbesine keder yükselmişdir. İstiklal dövrümüzde Ahund Yusif Azerbaycana dönerek könüllü yardım alayının komitesini kendi üzerine almışdı. Ahund Yusif kayet hereketli ve feal bir mücadile adamı idi. Hetta deyile biler ki, kabına sığmayan harakterde bir insandı. Eyni zamanda 'Musavat' partiyasının en eski ezalarındandı'[11].

---

[8] Todeusz Svietochovski, **Müslüman cemaatten ulusal kimlige Rus Azerbaycanı 1905-1920** (Türkcesi: Nuray Mert), Bağlam yayınları, Ankara 1988, s.113-114.

[9] Betül Aslan, **I. Dünya savaşı esnasında 'Azerbaycan türkleri'nin 'Anadolu türkleri'ne 'Kardaş kömegi (yardımı)' ve Bakü müslüman cemiyet-i hayriyesi,** Ankara, Atatürk kültür merkezi başkanlığı yayınları, 2000, s.72.

[10] İsa Hebibovun Kamal Talıbzadeye mektubu (21 may, 1987-ci il, Nahçıvan şeheri), **Abdulla Şaikin Menzil Muzeyinin arhivi**, kovluk 4, s.90.

[11] Abdülvahap Yurtsever, "Abdulla Şaik vefat etti", 'Azerbaycan'(Ankara), Azerbaycan Kültür Dernegi yayınları, sayı 4-5, 1959, s.14.

Akademik K.Talıbzade de bu faktları tesdikleyerek yazır ki, Yusif Ziya '1918-ci ilde türk ordusu ile beraber Bakûya kayıdır. Demokratik Respublika dönemınde 'Musavat' partiyasının orkanı 'Azerbaycan'da ve dövrün başka matbuat orkanlarında feal iştirak edir, maarif-medeniyet mövzularına dair mekaleler neşr etdirir. Bezi siyasi meselelerin hellinde Demokratik Respublika rehberleri ile razılaşmadığı üçün yeniden Türkiyeye kayıdır'[12].

1918-ci il iyun ayının evvellerinde türk esgeri destelerinin Gence istikametine hereketi başlamışdı. Lakin ordu rehberliyi Genceye daha tez gelmişdi. Türkiyeli tarihçi Halil Bal tarihi senedlere istinaden bildirir ki, Kafkasya İslam Ordusu Komandanı teyin edilen Nuri Paşa 25 may 1918 tarihinde Genceye dahil olmuşdu. Vezifesi – özü ile beraber getirdiyi zabit heyetinden faydalanarak Azerbaycanda Kafkasya İslam Ordusunu kurmak ve Bakını bolşeviklerden kurtarmak idi. Şimali Kafkasyaa yardım ancak bundan sonra mümkün ola bilerdi. Nuru Paşa vaht keçirmeden Azeri könüllülerden Kafkasya İslam ordusunun kuruluşuna başlamışdı, amma düzenli Türk küvvetleri getirmeden Bakı meselesinin hell edilmesinin mümkün olmadığı anlaşıldı[13].

Belelikle, Kafkasya İslam Ordusuna Türkiyeden bir-birinin ardınca yeni-yeni küvveler celb edilir. Türkiye koşunlarının bir kismi Kars ve Aleksandroproldan keçib Karakilse-Dilican-Kazah ve Ağstafa vasitesile, diger hissesi ise Güney Azerbaycan-Karabağ istikametinden hereket edirdi. Mürsel Paşanın başçılık etdiyi Türkiye ordusunun en yahşı diviziyalarından olan 5-ci diviziya iyun ayının evvellerinde Genceye dahil oldu. Keyd etdiyimiz kimi, bu vaht artık Türkiyenin Kafkasyada olan esgeri hisselerinin yeni baş komandanı, Enver Paşanın ögey kardaşı Nuru Paşa öz kerargahı ile Gencede idi.

Demeli, Osmanlı ordusunun Kafkasyaa, o cümleden Azerbaycana doğru hereketi hele 4 iyun Batum mükavilesinden önce başlamışdı. 'Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905–1920' eserinde amerikalı yazar Tadeusz Svietochovski bu hakda yazır: 'Nuri Paşa daha Osmanlı-Azerbaycan anlaşması imzalanmadan, 2 Haziranda, 'Bağımsız, İslami Azerbaycan Cumhuriyeti kurulması talebi doğrultusunda' müslümanları Bolşevik idaresinden kurtarmak üzere askeri hareket başlatma emri almıştı'[14].

Bakının alınmasınadek – 1918-ci il sentyabrın 15-e keder keçilmiş şerefli döyüş yolunda Osmanlı esgerleri ile yanaşı, azerbaycanlı könüllülerin ve hüsusile de könüllülerden ibaret yardım alayının komandiri Ahund Yusifin şücaeti şeksizdir. Eger Balkan müharibesinde Azerbaycan türklerinin hemreyliyini bildiren beyanamelerin İstanbulda yayılması Yusif Ziyanın adı ile bağlı idise, Bakının alınması erefesinde Ahund Yusifin de ön sıralarda döyüşdüyü Kafkasya İslam Ordusunu ruhlandıran, bu işin tarihi ehemiyyetini türk esgerlerine aşılayan ve bu şansın elden verilmesi ile onsuz da düşmen zülmü altında inleyen bacı ve kardaşlarımızı hansı taleyin gözlediyini gizlin müraciet ve beyanamelerde yayanlardan biri de onun kiçik kardaşı Abdulla Şaik idi. Heç şübhesiz ki, A.Şaikin mübarizlik ruhunun, türkçülük ve turançılığın en güclü dayağı, en küvvetli hamisi böyük kardaşı Yusif Ziya olmuşdur[15]. Ebdülvahab Yurdseverin bir yazısında tesdiklenir ki, 'Ayrıca bir çok şeirlerinde Abdulla Şaikin fikri siması üzerinde merhum ağabeyisi Ahund Yusif (Yusif Ziya) Talıbzadenin (bu mefkureye bağlılığını seraheten isbat etmişdir) böyük tesiri olmuşdur'[16].

'Abdulla Şaikin türkçülüyü'nü araşdıran Mübariz Süleymanlı haklı olarak bele bir mekamı hüsusile vurğulayır ki, Ahund Yusifin kiçik kardaşı Abdulla Şaikin bu dövrde yazılmış eserlerinin hamısı Azeri türklerinin milli varlıklarının tehlükeye meruz kaldığı, ölüm-dirim savaşına kalhdıkları tarihi mekamlarla bağlıdır. 'İki mücahid', 'Vetenin yanık sesi', 'Arazdan Turana', 'İntizar karşısında' ve bu sepkili dıger eserlerin çap olunduğu tarihlerin özü tedkikatçılara çok şey demekdedir. Bunlardan biri –

[12] Kamal Talıbzade, "Ahund Yusif Talıbzade", **Medeniyet dünyası**, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universitetinin neşriyyatı, 2001, II burahılış, s.44.
[13] Halil Bal, "Kuzey Kafkasyanın istiklalı ve Türkiyenin askeri yardımı, 1917-1918", **Kafkas araşdırmaları**, C. III İstanbul, 1997, s. 50.
[14] Todeusz Svietochovski, **Müslüman cemaatten ulusal kimlige Rus Azerbaycanı 1905-1920,** (Türkcesi: Nuray Mert). Ankara Bağlam yayınları, 1988, s.179.
[15] Mübariz Süleymanlı, "Abdulla Şaikin türkçülüyü", **Medeniyet dünyası**, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universitetinin neşriyyatı, 2001, II burahılış, s.57.
[16] Abdülvahap Yurtsever, "Abdulla Şaik vefat etti", 'Azerbaycan'(Ankara), Azerbaycan Kültür Dernegi yayınları, sayı 4-5, 1959, s.14.

'Neçin böyle gecikdin' şeirinin tarihçesine dikket yetirsek, onun hansı bir tarihi şeriatde yazılmış olduğu aydınlaşar. Osmanlı ve Azerbaycan türklerinin esgeri birleşmelerinden ibaret 'Kafkasya İslam ordusu' ile rus ve ermeni küvvelerinden ibaret bolşevik koşunlarının Gence ve Bakı arasındakı kanlı çarpışmalarına şahidlik eden bu iller türk tarihinin şanlı sehifelerini teşkil etmekdedir[17].

Sensiz kelbim kırık, sönük, çeynenmiş, hırpalanmış,
Ömür şüşem daşa deymiş, heyatım parçalanmış.
Kırık bir saz kimi sızlar kanlı, yorğun telleri,
Yakılar da, yakar bütün kayğı vurmuş elleri.
Şu vetenin öksüzleri, gelinleri, dulları,
Göz yaşıyla sulanmış hep keçdiyiniz yolları.
Yolunuzu beklemekden benizleri saralmış,
Heç gelmedin. O şen, güler ürekleri kem almış.
Sen gelmesen, dolumsanmış ürekler heç şad olmaz,
Sen gelmesen, herabaya dönen kelb abad olmaz.
Sen gelmesen, güneş doğmaz, ümid gülüm açılmaz,
Dodaklarım gülmez, sönük bahtıma nur saçılmaz.
Başkasını istemem de, ey türk, çabuk sen gel, sen,
Beklemekden yoruldum, eh, işte gec kaldın, neden?
Yollarına daşmı kalanmış? Ya azğın kuldurlar
Burakmıyor? Daş, demir, ya polad olsa da onlar,
Üreyinde şölenenen metin, kızğın ateşle
Yak onları, erit, söndür, çeyne, boğ, ez, hırpala!
Hain, alçak düşmenlere kol gücünü hep göster,
Aç yolları, çabuk gel ki, kelbim seni pek ister[18].

A.Şaikin bu şeiri – 1918-ci ilin 12 iyununda Gence ermenilerini itaet altına alan, 30 iyunda Göyçayı, 2 iyulda Salyanı, 5 iyulda Ağsunu, 10 iyulda Kürdemiri, 19 iyulda Şamahını, nehayet 15 sentyabrda Bakını işğaldan azad etmiş Türk ordusunun intizarında olan halkın heyecanının tercümanıdır. Ona göre de müellif şeire hem de 'İntizar karşısında' adı vermişdir.

Bu günün özünde de bele bir şeir gözlerimiz önünde minlerle türk kehremanlarının şücaetini canlandırmakdadır. M.Süleymanlının tebirince desek, 'A.Şaikin 'İntizar karşısında' şeiri tarihi, romantik, remzi, real menalarda, sözün geniş ve dar anlamında, millet ve aile çerçivesinde umulan kardaş kömeyinin, kardaş intizarının mücessemesidir. Heddi-hüdudu bilinmeyen ermeni amansızlığının tüğyan etdiyi Bakıda, türk-müselman ehalisinin ümid ve arzularının ifadesidir'[19].

Hem Osmanlı ordusu terkibinde gelen, hem de könüllü azerbaycanlılardan yüzlerle şehid vermiş kehreman türk ordusunun Bakı uğrunda 5 avkustda başladığı birinci hücumu herbi sursat kıtlığından uğursuz olmuşdu. Türk hücumunun def edilmesi düşmen cebhesinde ruh yüksekliyine sebeb oldu. 6 avkustdan etibaren Bakıda eli silah tutan 15-65 yaşlar arasında olan kişiler esgeri hidmete çağırılarak mecburen silahlandırıldı. Buna karşı çıhıb esger getmek istemeyen türklerden 600 nefer edam edildi. Dehşetler, iztirablar içerisinde inleyen Bakı türkleri, esgerlerin rüh yüksekliyini kaldırmak ve onları daha

---

17 Mübariz Süleymanlı, **age**, s. 56-57.
18 Abdulla Şaik, **Arazdan Turana** (Çapa hazırlayan, tertibçi ve keydlerin müellifi: Minahanım Esedli), Bakı Nurlan 2003, s.61.
19 Mübariz Süleymanlı, **age**, s. 57.

da cesaretlendirmek meksedi ile 10 avkust 1918-ci ilde 'Milyonlar şeheri adlanan Bakının kapıları önünde neçe gündür kelebe kuşunun kanadlarını tutmak isteyen Türk Ordusuna' başlıklı müraciet hazırlamış ve onu 'Kafkasya İslam Ordusu' içerisinde yaymışlar.

Bele bir vahtda Bakıda olan Azerbaycan ziyalıları Türk Ordusuna ünvanlanmış bu müracietle yanaşı, dövri matbuat sehifelerinde de Türk esgerlerini ruhlandıran, halkımızın istek ve arzularını eks etdiren yazılarla çıhış edirdiler. Bele yazılardan biri de temeli 1915-ci ilde M.E.Resulzade terefinden koyulmuş ve Bakının alınması erefesinde gizli şekilde neşr olunan 'Açık söz' gazetesinin redaktöru Abdulla Şaikin tezlikle diller ezberi olmuş mehz 'İntizar karşısında' şeiri olmuşdur[20].

Bakının azad edilmesinden sonra sabitlik ve emin-amanlık yaratmak yolunda ciddi işler görmüş Türk Ordusuna Azerbaycanı terk etmek emri verilende bele, ordunun ekser zabit ve esgerleri Azerbaycan vetendaşlığını kebul edib burada kalmağa kerar vermişdiller. Ve tebii ki, eslen azerbaycanlı olan herbçiler de müstekil Azerbaycan dövletinin teşekkülünde hidmetlerini esirgemirdiler ki, onların içerisinde Y. Z. Talıbzade çokyönlü faliyeti ile dikket merkezinde olanlardandır.

Y. Z. Talıbzade Cumhuriyet dönemınde dövri matbuatda, hüsusile de 'Müsavat' partiyasının organı olan 'Azerbaycan' gazetesinde medeniyetin mühtelif problemlerine dair müntezem çıkışlar edir. Bir müddet Azerbaycan Halk Cumhuriyetinin siyasi heyatında kızğın fealiyet gösterir. 'Azerbaycan' gazetesinde derc etdirdiyi 'Müsavat kurultayında dahili siyasetimiz'[21], 'Ekmek meselesi'[22], 'Kafkasiyaya bayram tebriki'[23], 'Cemiyeti ekvam'[24], 'Efkanıstan'[25] ve s. başlıklı mekalelerinden aydın olur ki, Y. Z. Talıbzade Azerbaycanla bu ve ya diger şekilde bağlantısı olan beynelhalk hadiselere bigane kalmamış, milli hökumetin yanlış ve küsurlu tedbir ve icraatını tenkid etmekden çekinmemişdi.

Azerbaycan Halk Cumhuriyetinin elan olunduğu tarihi şeriatin mürekkebliyi, beynelhalk veziyyetdeki keyri-müeyyenlik, Dünya dövletlerinin Azerbaycan siyasetindeki gerginlik, mühtelif meslek ve cebhelere hidmet eden dahili siyasi kruplar arasındakı çarpışmalar, hetta netice etibarı ile eyni ekide ve amal uğrunda mübarize aparan kruplar arasında bele mübahiseli mekamlar ortaya çıharırdı.

1911-ci ilde 'Müsavat' firkesinin teşekkülünü bildiren beyanameden ve partiyanın sonrakı prokramlarından islam amiline ne derecede mühüm yer verildiyi aydın görünür. 1911-ci ilde neşr olunmuş prokramın esas bendleri islam ittihadına hesr edilmişdi. 1-ci maddede deyilirdi: 'Milliyyet ve mezheb ferki koymadan bütün müselmalnların birleşmesi'[26]. Sonrakı partiya programlarında (1917, 1919, 1936) bu prinisplerde esaslı deyişiklik olsa da, islam amili heç vakıt kölgede kalmamışdır. Müsavatın ilk beş üzvü sırasında yer tutan Y .Z. Talıbzadeni de, heç şübhesiz, ilk vahtlar türkçülükden çok din amili, daha dekik desek, islam ittihadi maraklandırmışdır. Şeyh Cemaleddin Efkaniden üzü beri müselman dünyasında islahatçılık fikrinin tebliğatçıları, Osmanlı dövletini islamiyyetin merkezi ve sultanı da helife kimi görür ve sonradan 'turançılık' ideyasının bir çok yaradıcıları müselman-türk topluluklarının kurtuluşunu Osmanlı dövleti ile ittihadda görürdüler. Y.Z.Talıbzadenin heyat ve yaradıcılığı da onun esasen bu ekidenin daşıyıcısı olduğunu tesdikleyir. Azerbaycan Halk Cumhuriyetinin ideologları ile olan fikir ayrılıkları da mehz bu makamla bağlı olmuşdur. Demokratik Respublikanın ilk günlerinde, hüsusile de Kafkasya İslam Ordusu rehberliyi ile milli hökumet rehberleri arasındakı mübahiselerde bu amil de az rol oynamamışdır.

Müstekilliye geden yolun çetinliyini tesevvür etmek üçün siyasi küvveler arasındakı çekişmelere dikket yetirmek kifayetdir. Cumhuriyetin taleyinin hell edildiyi mekamda ise esas tehlükelerden biri de kardaş kömeyine gelmiş Osmanlı ordusundan öz kara emelleri üçün istifade etmeye çalışan mürtece küvvelerin baş kaldırması idi. Bu zaman hem rus hakimiyyeti, hem de inkilab neticesinde zerer çekmiş murtece küvveler üçün Osmanlı dövletinin ictimai ve siyasi rejimi çok elverişli idi. Bele bir situasiya Azerbaycanı netice etibarı ile asılı veziyyete salacak ilhakçılık üçün de çok münasib bir fürset yaradırdı.

---

[20] Mübariz Süleymanlı, **age**, s.21.
[21] Yusif ZiyaTalıbzade, "Müsafat kurultayında dahili siyasetimiz"**,** 'Azerbaycan' gez., Bakı, 1919, № 343.
[22] Yusif ZiyaTalıbzade, "Ekmek meselesi"**,** 'Azerbaycan' gez., Bakı ,1919, № 326.
[23] Yusif ZiyaTalıbzade, "Kafkasiyaya bayram tebriki"**,** 'Azerbaycan' gez., Bakı, 1919, № 369.
[24] Yusif ZiyaTalıbzade, "Cemiyeti ekvam"**,** 'Azerbaycan' gez., Bakı, 1919, № 348.
[25] Yusif ZiyaTalıbzade**, "**Afganıstan", 'Azerbaycan' gez, Bakı, 1919, № 350.
[26] Mirza Bala Memmedzade, **Milli Azerbaycan herekatı,** Bakı Nicat 1992, s.44.

Daha doğrusu, 'Azerbaycan hökumetinin deveti ile ve müeyyen müdahileye göre kömeye gelmiş İslam ordusu komandanlığının, hökumetle mürteceler arasındakı mübarizelerde 'bitereflik' elan etmesi, azerbaycanlılar üzerinde çok ağır tesir yaratmışdı. O yalnız bitereflik elan etmemiş, hökumetin ve Milli Şuranın tamamile dağılmasını ve mövkeyini paşanın öz arzusu ile teşkil edeceyi hökumete vermesini isteyirdi. Teşkil olunacak bu 'Hökumet' ise rus çarizminin sabik kapıkulları ile şeyhülislamdan ibaret olacakdı'[27].

Eslinde Milli Şura haricinde Paşanın öz arzusu ile teşkil edilecek hökumetin mövcudluğu yeni hükuki veziyyet yaradacakdı.

Bununla da Azerbaycan müstekil bir dövlet olmakdan çıkarak Türkiyenin bir hissesi şekline girecekdi. Halbuki bu, 1918-ci il 4 iyun Batum mükavilesine, Brest-Litovsk mükavilesine ve elece de müstekillik yolunda kazanılmış bütün uğurlarla daban-dabana zidd bir yanaşma idi. Bele bir mekamda hetta milliyyetçiliklerine şübhe edilmeyen bezi tanınmış şahsiyetler de Azerbaycanın kurtuluşunu yalnız Türkiyeye birleşmekde görürdüler ki, bir terefden islam ittihadı tebliğatçısı, diger terefden de Kafkasya İslam Ordusunun kifayet keder nüfuzlu zabiti olan Y.Z.Talıbzade de heç şübhesiz bu ideya terefdarlarından idi. 'Ehmed bey Ağaoğlu kimi böyük şahsiyet bele Azerbaycanın müstekil yaşaya bilmeyeceyini ve Rusiya ile Türkiyeden birine arhalanmasının vacib olduğunu, Türkiye meğlub oldukdan sonra Rusiya ile anlaşmakdan başka çare kalmadığını Bakıda çıhan bir rus gazetesine verdiyi müsahibede beyan edirdi'[28]. Tebii ki, Azerbaycanın üzleşdiyi belalar fonunda ve gergin ictimai-siyasi şeraitde halkın kurtuluş yolunu arayan bu ekide sahiblerinin siyasi bahışlarının hakk kazandırılan terefleri de var idi. Nehayetde Azerbaycan Halk Cumhuriyetinin hemin tarihi şeriatde taleyi yene Milli Şura ve Hökumet rehberleri ile Kafkasya İslam Ordusu terkibinde selahiyyet sahibleri olan E.Ağaoğlu ve A.Yusif kimi eslen azerbaycanlı ideologların birge diskussiyaları, fikir mübadileleri sayesinde hell edildi.

Belke de ele yuharıda keyd olunan mübahiseli meseleler ve fikir ayrılıkları sebebindendir ki, Y. Z. Talıbzadenin cumhuriyet illerindeki faliyetinde anlaşılmaz mekamlar ortaya çıhır. Bununla bağlı menbelerde ziddiyyetli melumatlara rast gelınir. M.Sarvan 'Borçalı alimleri' kitabında Y.Z.Talıbzadenin 'Bezi siyasi meselelerin helli üçün yeniden Terkiyeye kayıtmasından' behs edir[29]. K.Talıbzade ise yazır ki, o hemin dövrde 'Bezi siyasi meselelerin hellinde Demokratik Respublika rehberleri ile razılaşmadığı üçün yeniden Türkiyeye kayıdır'[30]. Y. Z. Talıbzadenin bacısı oğlu Hüsneddin Rzayevin K.Talıbzade terefinden yazıya alınmış hatirelerinde[31] bu hakda iki yerde behs edilir. Birinde keyd olunur ki, 'Müsavat hökumetinde Ahund Yusif kalmır. Eşitdiyime göre Ahund Yusif istemirdi Müsavat ingilislerle elakeye girsin. Ahund Yusif müstekil siyasetin terefdarı idi'. Diger bir yerde ise ohuyuruk: 'Nesib bey Yusifbeyov ile zidd idi. Hanhoyski ile Kerim bey Vekilov ingilis terefdarı oldukları üçün onlara da münasibetleri pis idi. Keti şekilde Türkiye terefdarı idi'. Buradan da aydın olduğu kimi, Y.Z.Talıbzade neinki hemin yıllarda, ondan sonrakı faliyetini de türk-islam ittihadçılığı uğrunda mübarizeye hesr etmişdir.

Dünya herbi illerinde Y.Z.Talıbzadenin Osmanlı ordusu terkibinde Güney Azerbaycandakı faliyetine tokunmuşduk. K.Talıbzadenin keydlerinden melum olur ki, o, cumhuriyet döneminde de Güney Azerbaycanda siyasi-ideoloji fealiyetle meşğul olmuşdur. Y.Z.Talıbzadenin Azerbaycan Halk Cumhuriyetinin siyasi heyatında kızğın fealiyet göstermesine öteri tokundukdan sonra akademik yazır: '1919-cu ilde Osmanlı dövleti nümayende heyetinin başçısı kimi Tebrize gedir (Yusif Ziya nezerde tutulur – M.E.), orada hemkarları ile Güney azerbaycanlıların azadlık mübarizesini destekleyen 'İttihadi-islam' cemiyetini yaradır'[32].

Evvelde de tohunduğumuz kimi, Azerbaycan Halk Cumhuriyetinin dahili ve harici siyaseti ile bağlı, ümumilikde ise Azerbaycanın ideoloji perspektivlerine dair siyasi bahışlardakı ferkler Osmanlı

---

[27] **Age**, s.99.
[28] **Age**, s.108.
[29] M. Sarvan, "Borçalı Alimleri"**, Azerbayzan Milli Ensiklopediyası**, Bakı 2001, s.427.
[30] Kamal Talıbzade, "Ahund Yusif Talıbzade"**, Medeniyet dünyası**, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universitetinin neşriyyatı, 2001, II burahılış, s .44.
[31] Hüsneddin Rzayev, Ahund Yusif Ziya Talıbzade (K.Talıbzade terefinden yazıya alınmış hatirelerin elyazması, kovluk 4), A.Şaikin Menzil Muzeynin arhivi.
[32] Kamal Talıbzade, Yusif Ziya Talıbzade**,** A.Şaikin Menzil Muzeyinde sahlanılan elyazması, kovluk 4, s.9.

Ordusu nümayendelerinin Genceye geldiyi günden daha keskin harakter almışdı. Nuru Paşanın özü bele müstekilliyini yenice elan etmiş resrublikanın siyasetine müdahile etmek cehetden tereddüd etmir, 'Azerbaycanist' düşüncede olmalarından narahat ola bilecek solçu ve ya müsavatçılara karşı mühafizekar ve panislamist çevrelere olan yahınlığını gizletmirdi. Hüsusile de, Rus inkilabının bir mehsulu hesab etdiyinden Milli Şuraya da çok ciddi yanaşmırdı.

Osmanlı dövletinin hem şimali, hem de Güney Azerbaycanla bağlı siyasetini araşdıran tedkikatçıların ekseriyyeti bu fikirdedir ki, bu siyaseti heyata keçirenler her cür müstekillik fikrine mühalifetde olmuş, milli istiklal önderlerini mübarize meydanından uzaklaşdırmak üçün bir sıra tedbirler görmüşler. T.Svietochovskinin kenaetine göre, ümumilikde, Osmanlı esgeri idaresi altında heyata keçirilen siyaset Rus inkilabının demokratik sahedeki nailiyyetlerini zedeleyirmiş kimi görünürdü. Tedkikatçı-alim diger araşdırıcılara – R.Pipes, Ş.Tağıyeva ve başkalarına istinaden yazır: 'Osmanlı yöneticileri, aralarında Resulzadenin de olduğu birkaç Azerbaycanlıyı Türkiyeye uzunca bir ziyarete davetle yerlerinden oynatmışlardı. İşğalçı kuvvetler Tebrizde daha da sert tedbirlere başvuruyorlardı, Azerbaycan Demokratik Partinin radikal öncüsü ve Sattar Hanın eski dostu Şeyh Muhammed Hiyabani Karsa sürülmüş, Demokratik Parti yasaklanmış, İttihad benzeri ve Osmanlı yanlısı İslam Birligi dışında heç bir yasal siyasal örgüt bırakılmamıştır'[33].

Tarihi hadiseler izlenildikde bele bir kenaet hasil olur ki, 'İttihadi-islam' cemiyetinin önderlerinden biri kimi Y.Z.Talıbzadenin Güney Azerbaycandakı faliyeti netice etibarıile hem müsavatçıların siyasi hettine, hem de Hiyabani herekatına muhalif ruhda olmuşdur. Eslinde cenubdakı milli herekatla Azerbaycan Halk Cumhuriyetinin siyasi kurslarında da ferkli ve bir-birine zidd mövkeler müşahide edilmekdeydi. 'Bakı ve Tebriz idareçileri arasındakı yahınlaşma (İranla-Azerbaycan arasında 1920-ci ilin martında bağlanmış dostluk ve ticaret anlaşması nezerde tutulur – M.E.) ve müsavatçıların katı ingilis terefdarlığı, Hiyabani önderliliyinde işğala karşı güclenen ve hüsusen bu herekatın genişlendiyi Tebrizde mühalif reaksiyaya sebeb oldu. Bu herekat Tehrandakı merkezi hökumete olduğu keder, ingilis hakimiyyetine de karşı idi, bununla beraber Azerbaycan Cumhuriyetine de düşmençilik beslemeye başlamışdı. Hiyabani ve terefdarlarının Müsavat rejimine katı, soldan mühalifetde olan Hümmet ve edalet kruplarının simpatiyasını kazanması çok teeccüblü sayılmazdı, belece inkilabçı pan-Azerbaycan hemreyliyi tekrar gündeme gelmişdi'[34].

Eslinde Hiyabani, imperialist dövletler terefinden tanınan müsavatçılarla Azerbaycan birliyi üçün hemrey deyildi; bolşeviklerin Bakı çevrilişini müsbet karşılamışdı, bu hadiseni eski hümmetçilerin bir zeferi olarak görürdü. Ancak kısa bir müddetden sonra, Bakıda son sözün ruslarda olduğunu ve bolşevizmin vüset aldığını derk edince bahışlarını deyişdirmişdi. Bolşevizmin İrana doğru hereketinin sonrakı inkişafında hiyabaninin sovetlere karşı şübheleri getdikce artır. O, Tehrana karşı üsyanı davam etdirmekle beraber, hem de hiddetli bir İran vetenperveri olmuşdu. İngilis olsun, rus olun – yabançıların İranın dahili işlerine müdahileye hakkı olmadığını bildirir, bolşevikler İranın her hansı bir yerini ilhak etmeye kerar verdikleri tekdirde İran azerbaycanlılarının onlara karşı bir nefer kalıncaya keder vuruşacaklarını beyan edirdi. Bele bir durum meydana gelmedi, feket Azadistan kısa bir müddet erzinde Araz çayının şimalındakı Sovet iktidarına mühalif olanların sığınağı halına geldi[35].

Dünya dövletlerinin Azerbaycan siyasetindeki menafe mühtelifliyi, Türkiyede Dünya herbinde meğlub olmuş Osmanlı iktidarı ile Atatürkün rehberlik etdiyi milli herekatdan doğan ikihakimiyyetlilik Azerbaycandakı veziyyeti daha da mürekkebleşdirirdi. Hem Zakafkasyaiyadakı, hem de Anadoludakı türkler Azerbaycan hökumetinin ince diplomatik durumunu çok dikkete almırdılar. Mustafa Kamala gelince, o, Türkiyenin harici siyasetine bağlı olarak panislamizm ve pantürkizmi tamamile redd edir, belece 1918-ci ilden sonra da bu ideyaları destekleyen ittihadçıların siyasetinden keti suretde ayırılırdı. Onun fikrince, pantürkizm ve panislamizm sadece Türkiyenin Rusiyanın dostluğuna olan ehtiyac ile zidd olmakla kalmır, 'önce Türkiye' düşüncesine dayanan milliyyetçiliyi ile de tezad teşkil edirdi. Bununla bele, Azerbaycanda Anadolu milli azadlık herekatına reğbet besleyenlerin sayı oldukca çok idi ve

---

[33] Todeusz Svietochovski, **Müslüman Cemaatten Ulusal Kimlige Rus Azerbaycanı 1905-1920** (Türkcesi: Nuray Mert). Ankara Bağlam yayınları. 1988, s.180.
[34] **Age**, s. 209.
[35] **Age**, s. 246-247.

getdikce de artırdı. Bu durum ise çok ferkli siyasi menzere yaradırdı: bunlar arasında, sonunda ittihadçıların milliyyetçilerin yerini alacağına inanan panislamistler, Türkiyedeki herekatın dünya çapında bir anti-imperialist partlayışın başlanğıcı olduğunu duşunen solçular ve ümumilikde mehdud, dar Azerbaycan milletçiliyine karşı olan deyişik siyasi düşüncelere sahib kimseler vardı. Nesib bey Yusifbeylinin ikinci kabineti, bu geniş reğbet hisslerinden doğan bir hoş niyyet göstericisi olarak, dekabr 1919-cu ilde Mustafa Kamala maddi (pul) yardımı etdi. Lakin 'Bu hereket, genel durumu değiştirmedigi gibi, Azerbaycanda bulunan Türklerin asılında Azerbaycan Cumhuriyyetinin yıkımına yol açacak faaliyyetlerini de durduramamıştı. Halil Paşanın dahi çocukça davrandığını söylediyi Nuri Paşa, kökü 1918 hazıran krizine dayanan Müsavatçılara karşı büyük kiniyle, tüm gücünu Bolşevikleri desteklemeye vermişti. Kendisi ve İttihat ve Terekki takipçilerine Azerbaycanda siyasal destek sağlayan ittihad krubuyla yakın ilişkisi işte bu tarihlerde başlamıştı'[36]. Milli hökumete karşı tezyikler hem ittihadçılar, hem de Mustafa Kamal terefdarları terefinden gösterilirdi. Rus işğalı erefesinde bu tezyik daha sert bir şekil almışdı. Anlaşılmazlık o seviyyede idi ki, hetta bu arada ittihadçılar hökumete karşı küçe nümayişlerinde, kerbyönlü müsavat liderlerini Kızıl Ordunun Türkiyenin yardımına getmesini engellemekle günahlandırırdılar.

Heç şübhesiz ittihadçı ve panislamizmin katı terefdarı olan Yusif Ziya birbaşa olmasa da, sonuc etibarile Azerbaycan Halk Cumhuriyetinin istiklal ideyalarına hemrey olmamışdır. O da dövrün bir çok türk böyükleri kimi Azerbaycanın kurtuluşunu en yahşı halda Osmanlı hüdudlarına katılmakda görürdü. Onun ister rus işğalından evvel, isterse de sonrakı yıllardaki panislamizm ve ittihadçılık fealiyetleri onun ideoloji bahışlarındakı ferkleri aşkar biruze verir. Milli hökumetle münasıbetlerdeki anlaşılmazlıklar da mehz siyasi bahışlardan ireli gelirdi. Rus işğalına keder, daha çok Türkiye ve İran hüdudlarındakı çalışmaları da onun ittihadi-islam ekidesine sedaketinden doğurdu. Y.Z.Talıbzadenin sovet döneminin ilk illerinde Azerbaycandakı faliyetine son koyub doğma yurdu terk etmesi ve Türkiyeye – Mustafa Kamal önderliyindeki milli azadlık herekatına deyil, Orta Asiyaya – panislamit ve pantürkist Enver Paşanın başçılık etdiyi 'Basmaçılar' herekatına doğru üz tutması, ve islam birliyi mefkuresi uğrunda şehidlik mertebesine yükselmesi ise, fikrimizce, meslek ve ideya bahımdan heç bir mübahiseye revac vermir.

## Kaynaklar


🕮 ABDULLA Şaik, **Arazdan Turana** (Çapa hazırlayan, tertibçi ve keydlerin müellifi: Minahanım Esedli), Bakı Nurlan 2003.

🕮 ASLAN Betül, **I. Dünya savaşı esnasında 'Azerbaycan türkleri'nin 'Anadolu türkleri'ne 'Kardaş kömegi (yardımı)' ve Bakü müslüman cemiyet-i hayriyesi,** Atatürk Kültür Merkezi BaşkanlığıYayınları, Ankara 2000.

🕮 BAL Halil, "Kuzey Kafkasyanın istiklalı ve Türkiyenin askeri yardımı, 1917-1918", **Kafkas araşdırmaları**, c. III İstanbul, 1997, s.29-91.

🕮 CAVAD Heyet, "Dr. Turec Etabekinin 'Azerbaycan' kitabı üzerine bir deyerlendirme ve tekmilleşdirm**e", Medeniyet dünyası**, VI burahılış, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universiteti, 2003, s.68-80.

🕮 ELIYEV Möhsün, "Yusif Ziya bey Talıbzade"**, Ulduz**, 1989, № 2 (262), s.93-94.

🕮 **İsa Hebibovun Kamal Talıbzadeye mektubu (21 may, 1987-ci il, Nahçıvan şeheri),** Abdulla Şaikin Menzil Muzeyinin arhivi, kovluk 4.

🕮 KARACA Ahmet, **Azerbaycanın yakın tarihine kısa bir bakış,** Azerbaycan Kültür Dernegi Yayınları, Ankara 1982.

🕮 MEMMEDZADE M. B., **Milli Azerbaycan herekatı,** Bakı Nicat 1992.

🕮 RESULZADE M.A., **'**Müsavat' partisinin kuruluşu**,** 'Azerbaycan' (Ankara), Azerbaycan kültür dernegi Aylık Yayın Orkanı, sayı:167 (2), şubat 1966, s.12-18.

🕮 RZAYEV H., Ahund Yusif Ziya Talıbzade (K.Talıbzade terefinden yazıya alınmış hatirelerin elyazması, kovluk 4), A.Şaikin Menzil Muzeynin arhivi.


[36] **Age**, s. 215-216.

- SARVAN M., "Borçalı alimleri"**, Azerbayzan Milli Ensiklopediyası**, Bakı 2001.
- SÜLEYMANLI M.A., "Abdulla Şaikin türkçülüyü", **Medeniyet dünyası**, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universitetinin neşriyyatı, 2001, II burahılış, s.19-59.
- SVIETOCHOVSKI Todeusz. **Müslüman cemaatten ulusal kimlige Rus Azerbaycanı 1905-1920,** (Türkcesi: Nuray Mert). Ankara Bağlam yayınları. 1988.
- TALIBZADE K.A., "Ahund Yusif Talıbzade"**, Medeniyet dünyası**, Azerbaycan Dövlet Medeniyet ve İncesenet Universitetinin neşriyyatı, 2001, II burahılış, s.42-47.
- _______________ "Yusif Ziya Talıbzade", A.Şaikin Menzil Muzeyinde sahlanılan elyazması, kovluk 4.
- TALIBZADE Y.Z., "Müsafat kurultayında dahili siyasetimiz"**, 'Azerbaycan'** gez., Bakı, 1919, № 343.
- _______________ "Ekmek meselesi"**, 'Azerbaycan**' gez., Bakı ,1919, № 326.
- _______________ "Kafkasiyaya bayram tebriki"**, 'Azerbaycan'** gez., Bakı, 1919, № 369.
- _______________ "Efkanıstan", '**Azerbaycan'** gez, Bakı, 1919, № 350.
- _______________ "Cemiyeti ekvam", '**Azerbaycan'** gez., Bakı, 1919, № 348.
- YURTSEVER Abdülvahap, "Abdulla Şaik vefat etti"**, 'Azerbaycan'** (Ankara), Azerbaycan Kültür Dernegi yayınları, 1959, sayı 4-5.